UOT 94 «04/15»

# XVI ƏSRİN SONU–XVII ƏSRİN BİRİNCİ YARISINDA İNGİLTƏRƏNİN MÜSTƏMLƏKƏ SİYASƏTİ TARİXİNİN BƏZİ ASPEKTLƏRİ VƏ SƏFƏVİLƏR DÖVLƏTİ (ingilis mənbələri əsasında)

**D.Q.HƏSƏNZADƏ**
*Bakı Dövlət Universiteti*
*d_hasanzade@mail.ru*

*Bir çox Avropa dövlətlərinin, o cümlədən İngiltərənin planlarında Səfəvi dövləti özünəməxsus yer tuturdu. İngiltərə Səfəvi dövlətinə Yaxın Şərqdəki mövqelərini möhkəmlətmək və hökmranlığını bərqərar etmək işində mühüm platsdarm kimi baxırdı. Səfəvi dövləti ilə yaxın münasibətlərin saxlanılması, həm də yeni xammal mənbəyi və geniş bazarlara nail olmaq demək idi.*

**Açar sözlər:** İngiltərə, Səfəvi dövləti, ticarət, diplomatiya, Ost-Hind kompaniyası

XVII əsrin birinci yarısında Şərqdə İngiltərənin müstəmləkə işğalları planlarında Səfəvilər dövləti xüsusi yer tuturdu. Bu dövlətin zənginliyi Avropa ölkələrinə hələ xaç yürüşləri zamanından bəlli idi. Bununla yanaşı, Türkiyənin Fransa ilə hərbi-siyasi yaxınlaşması və türk təhlükəsi Səfəvilər dövlətinin Türkiyəyə qarşı vacib hərbi müttəfiq kimi strateji əhəmiyyətini artırırdı. Nəhayət, bir çox Avropa dövlətləri Səfəvilər dövlətinə Orta və Uzaq Şərqdə öz ağalığını bərqərar etmək və yeni xammal mənbəyi, əlverişli bazara sahib olmaq istiqamətində mühüm platsdarm kimi baxırdılar.

I Şah Abbasın hakimiyyətə gəlməsindən sonra Səfəvilər dövlətinin güclənməsi Avropa dövlətlərini onunla yaxınlaşmağa sövq edirdi. Papalıq, Venesiya, İspaniya və Almaniya imperiyaları Səfəvilər dövlətinə xüsusi maraq göstərirdilər. Bu xristian qərbinin güclü Osmanlı imperiyasını zəiflətmək istəyi ilə bağlı idi. Lakin qeyd etmək lazımdır ki, qərb ölkələri Səfəvilərin Türkiyə üzərində tam qələbəsində maraqlı deyildilər. Onlar belə hesab edirdilər ki, «nə qədər ki, bu dövlətlər bir-biri ilə vuruşur, xristian dünyası rahatlıq və təhlükəsizlikdə olar» [13, 5].

Səfəvilər dövlətinə gəldikdə isə onların Avropa ilə diplomatik fəaliyyəti yalnız bir məqsədə – antitürk ittifaqının bağlanması və Türkiyəyə qarşı kömək əldə etməyə yönəlmişdi.

XVI əsrin sonlarında Türkiyə ilə sıx siyasi və iqtisadi əlaqələr yaradan İngiltərə Səfəvilər dövlətində baş verən hadisələri diqqətlə izləyirdi. 1599-cu ildə bu məqsədlə ingilis centlemen avantüristləri – Entoni və Robert Şerli qardaşları Səfəvilər dövlətinə gəldilər.

Demək olar ki, bütün ingilis burjua tədqiqatçıları Şerli qardaşlarının məlumatlarına əsaslanırdı, onların rolunu şişirdir və gəlişini ingilis dövlətinin xarici siyasəti ilə əlaqələndirirdilər. Bununla yanaşı tədqiqatçılar belə qənaətə gəlirdilər ki, Şerli qardaşları ingilis hökuməti adından Osmanlı imperiyasına qarşı birgə mübarizə aparmaq və iki dövlət arasında ticarət münasibətlərini yeniləmək üçün Şah Abbasla danışıqlar aparmaq məqsədilə göndərilmişdilər. Yalnız tarixi mənbələrin və sənədlərin müqayisəli təhlili baş verən hadisələrin reallığını tamamilə izah etməyə imkan verir. Entoni Şerli özünü Şotland kralı Ceymsin ögey qardaşı elan edərək, bütün xristian dünyası krallarının ona etimad göstərib ümumi düşmənləri olan Türkiyə ilə müharibənin aparılmasında şah ilə danışıqlar aparmaq üçün səlahiyyətləndirildiyini bildirirdi. Hətta Oruc bəy Bayat ingilis avantüristinin yuxarıda göstərilən ifadələrini sözbəsöz yazaraq qardaşların Səfəvilər dövlətinin paytaxtında nə işlə məşğul olduğundan xəbərdar deyildi.

Şerli qardaşlarının fəaliyyətini tədqiq edən və nəticədə onlar haqda kitab yazan D.Ross qeyd edirdi ki, cənab Entoni Şerli İngiltərədə məşhur Sesseks qraflarının nəslindən idi və o, Oksvord universitetini bitirmişdir [6, 76].

Sadəcə təsadüf E.Şerlini Səfəvi dövlətinin paytaxtına gətirdi. Hər şey onun 1598-ci ildə öz havadarı və əmisi oğlu qraf R.Esseksin göstərişinə əsasən qardaşı Robertin müşayiəti ilə İngiltərədən İtaliyaya gəlməsi ilə başladı. Onun vəzifəsi İtaliya qrafının oğlu Don Sezar de Esteni Ferrare hersoqluğunda dəstəkləməkdən ibarət idi. Auqsburqa çatanda o öyrəndi ki, papa VIII Kliment artıq bu hersoqluğu zəbt edib və buna görə də öz səfərinin məqsədini dəyişməli olur. Venesiyaya yola düşən və orada iki aylıq istirahətdən sonra şərq tacirləri ilə görüş E.Şerlidə macəra arzusunu oyatdı. O, gəmi ilə Bağdaddan keçərək Şah Abbasın ölkəsinə gəldi [7, 51]. Məşhur ingilis tacirləri P.Cekson və Lokart bildirirdilər ki, E.Şerli qraf Esseks tərəfindən şahı Türkiyəyə qarşı xristian dünyası ilə birləşməyə inandırmaq üçün göndərilmişdi [11, 386]. Şah Abbas E.Şerli ilə görüşdü və nəinki onun sözlərinə inandı, hətta Mirzə Antonio adlandırdığı bu ingilis centlemeni ilə şəxsən dostluq etdi [9, 77]. Avropa hakimlərinin rəğbətini və dəstəyini qazanmaq üçün o, E.Şerliyə qarşı çox səxavətli idi. Şah ingilislərə bildirirdi ki, Səfəvilərlə ticarət etmək arzusunda olan xristian tacirlərə ən əlverişli imtiyazlar veriləcək, heç bir idarəçi onların işlərinə qarışa bilməz, onların üzərinə heç bir vergi qoyula, heç bir «din adamları» onları narahat edə bilməz. Ümumiyyətlə, yadellinin Səfəvi dövlətində yaxşı qarşılanması üçün hər cür şərait yaradılacaq [10, 77].

Bütün bunlar Şah Abbasa ona görə lazım idi ki, adı çəkilən ingilisin köməyi ilə Səfəvi dövlətinin əzəli torpaqlarının geri alınmasında Osmanlı imperiyasına qarşı müharibədə dəstək ala bilsin.

Bu arada Moskva hökuməti xalq üsyanları, idarəçilikdə amansız mübarizələr və Polşa-isveç müdaxiləsi nəticəsində dərin siyasi böhran keçirirdi [4, 8]. Buna görə də, şah müttəfiqlərini sərhədlərdən çox uzaqda axtarırdı. E.Şerliyə hədiyyələr bəxş etməklə Səfəvi nümayəndə heyətini Avropa ölkələrinə, xüsusilə, Almaniya, Roma, İspaniya, Venesiya, Fransa, İngiltərə və Şotlandiyaya səyahətlərdə müşayiət etmək üçün onun razılığını aldı. Şerlinin gedişi və hərbi ittifaqın bağlanması ilə əlaqədar Səfəvilər sarayında həmfikirlilik yox idi. Şerlinin, yoxsa Hüseynəli bəyin diplomatik missiyanın başçısı təyin olunması ilə bağlı razılıq da əldə olunmamışdı. Belə halda şah səfirlər üçün bütün hazırlıqlara başlanmasına dair əmr verdi. E.Şerli Səfəvi səfiri Hüseynəli bəyi müşayiət etmək üçün balaca qardaşı Robertin digər ingilislərlə birgə İsfahanda qalmasına razılıq verdi.

Oruc bəy öz kitabında səfirliyin Rusiyaya səyahətini ətraflı təsvir edir. Təəssüf ki, onun qeydləri Səfəvi diplomatik missiyasının Rusiya dövlətində olması haqda az saylı sübutlardan biri olaraq qalacaq. Missiyanın olduğu Rusiya şəhərlərinin (Arxangelsk, Moskva, Rubinsk, Nijni Novqorod, Kazan, Həştərxan və s.) arxivlərində Oruc bəy Bayatın məlumatlarını zənginləşdirə bilən heç bir sübuta rast gəlinməmişdir.

Arxangelskə çatan Səfəvi səfirliyinin nümayəndələri yollarına davam etmək üçün Flamand gəmisinə mindilər. Onlar Avropa hakimləri üçün ayrılmış qiymətli hədiyyələrin böyük qismini Şerlinin məsləhəti ilə onun dostuna verdilər və onları Romada almağa sözləşdilər. Lakin Romaya çatanda aydın oldu ki, Avropa hakimləri üçün ayrılmış hədiyyələr onları taleyin hökmünə buraxmış Şerlinin təşəbbüsü ilə «itib». Bununla Şerlinin xəyanətinin qurbanı olan səfirlik tam məğlubiyyətə uğradı.

1601-ci ildə öz qohumunun bu cür hərəkətindən xəbərsiz olan Şotlandiya kralı şaha məktub yazır və o, Türkiyəyə qarşı birgə mübarizənin vacibliyini bildirir. Orta əsrlərin son mərhələsində Səfəvilər dövlətinin xarici siyasi əlaqələrinin öyrənilməsinə şərait yaradan bu məktubun bir nüsxəsi ilk dəfə 1942-ci ildə ingilis şərqşünası Artur Arberi tərəfindən aşkara çıxarılıb [12, 31-32].

Məktubun öyrənilməsi və təhlili zamanı belə bir faktı nəzərə almaq lazımdır ki, bu məktub gələcək ingilis kralı I Ceyms (Şotlandiya VI Yakov) tərəfindən hələ Şotlandiya kralı olduğu zaman yazılıb. 1603-cü ildə o, İngiltərə kralı olduqdan sonra isə onun Yaxın Şərq ölkələrinə olan siyasətində bir çox şey dəyişir.

Qeyd olunduğu kimi, Şerlinin xəyanətindən xəbərsiz kral guya ki, Şerlinin I Şah Abbasa göstərdiyi xidmətlərini bütün Avropa dövlətlərində tərifləyir.

Şotland kralının məktubu I Şah Abbasla həmişəlik dostluq vədləri və Türkiyənin ünvanına yeni təhdidlərlə tamamlanır.

VI Ceyms İngiltərə kralı I Ceyms olduqdan sonra onun şərq siyasətində ciddi dəyişikliklər baş verdi. Sonralar onun Hindistandakı səfiri T.Roy öz kralının adından Ali cənaba (Türkiyə sultanına-D.H.) sülh təklif etdi. O yazır

ki, «biz həm Konstantinopol, həm də İran ilə bərabər şəkildə dostluğumuzu saxlamalıyıq» [8, 81-82, 5 № 10].

İngiltərənin hakim dairələri I Şah Abbasın siyasətini anlayışla qarşılayırdılar. Onlar İranla birbaşa ticarət əlaqələrinin qurulmasında maraqlı idilər, digər tərəfdən isə İngiltərə-İran yaxınlaşması Osmanlı imperiyası ilə olan əlaqələrə mənfi təsir göstərə bilərdi. Buna görə də, kral Hindistandakı ingilis səfiri T.Roya məktubunda «səfirin sözləri ilə razılaşdığını» və Fars körfəzinin açılması və onun ərazilərində ticarətin genişlənməsi, xüsusilə də ipək ticarəti üçün Sufi (I Şah Abbas) ilə razılığa gəlməsini müsbət dəyərləndirmişdir.

Hörmüzdə birgə əməliyyatların gedişi zamanı portuqallar buradakı qaladan qovulduqdan sonra İngiltərə hökumətinin Səfəvi dövlətinə münasibəti də yeni şəkil almağa başladı. Hərbi əməliyyatlara başlamazdan əvvəl ingilislər İran hökumətinə öz tələblərini bildirdilər. Bu tələblərdən birinə görə "Hörmüz qalası ingilislərin tabeliyinə keçməli idi…, İran isə öz vəsaitləri hesabına yeni qala tikməli idi" [8, 81-82, 5 № 10].

Hörmüzün alınmasından sonra Şah Abbas tələblərin yerinə yetirilməsindən imtina etdi.

Beləliklə, ingilislər Hörmüzü ələ keçirə bilmədilər. London OHŞ-nin portuqallara qarşı müharibədə iştirak edib «iranlıları Hörmüzdən qovmaq və bütünlüklə oranı tutmaq» tələbi ilə razı deyildi. XVII əsrin 30-cu illərinin əvvəllərində İngiltərə ilə Səfəvi dövləti arasında diplomatik-ticarət əlaqələri formalaşmağa başladı. Buna təsir edən amillərdən biri ingilislərin Səfəvi dövlətinin maraqlarını nəzərə almadan ipək ticarətindən böyük gəlirlər əldə etmək cəhdləri idi. Səfəvi dövləti isə İngiltərəyə güzəştə getmək fikrində deyildi. Bundan başqa Səfəvi dövləti İngiltərə ilə əlaqələri canlandırmaq üçün heç bir diplomatik addım da atmadı.

## ƏDƏBİYYAT


1. К вопросу диплотических отношений Англии с государством Сефевидов в 20-30-е гг. XVII в. / Материалы научной конференции посвященной 80-летию Азербайджанской Народной Республики. Баку, 1998, с. 8.
2. К вопросу методов колониального проникновения Англии на Восток в I пол. XVII в., // Tarix və onun problemləri, 2008, № 1-2, с. 47-49.
3. К истории образования Ост-Индской компании. // Bakı Universitetinin Xəbərləri. Humanitar Elmlər seriyası, 2003, № 3, с.73-76.
4. Бушев П.П. История посольств и дипломатических отношений Русского и Иранского государств в 1613-1621 гг. М., Наука, 1987, 278 с.
5. Гасанзаде Д. Англо-сефевидские отношения (по материалам английских источников). Монография. Баку, БГУ, 2007, 194 с.
6. Arbery A. British contribution to Persian studies. London, Oxford, 1942, 170 s.
7. Babinger F. Serliana. Berlin., Leypsiq, 1932, 241 s.
8. Calendar of State Papers. London, Cambridge,1622-1624, № 10.
9. Sherley A. His relations of his travels into Persia. London, Oxford, 1613.
10. Sykes P.A. History of Persia. London, Tehran, 1921,v.11.
11. The Cambridge history of Iran. Cambridge, 1986, v.6.
12. Translation of James Letter to shah Abbas. British contributions // …by A.Arbery, London, Oxford, 1942.
13. Young H. The East India Company arsenals and manufacturies. Oxford, 1937.

# НЕКОТОРЫЕ АСПЕКТЫ КОЛОНИАЛЬНОЙ ПОЛИТИКИ АНГЛИИ В КОНЦЕ XVI ПЕРВОЙ ПОЛОВИНЫ – XVII вв. И СЕФЕВИДСКОЕ ГОСУДАРСТВО
## (по материалам английских источников)

**Д.Г.ГАСАНЗАДЕ**

**РЕЗЮМЕ**

В планах европейских государств, в том числе Англии особое место занимало государство Сефевидов. Англия рассматривала государство Сефевидов в качестве важного плацдарма для утверждения своего господства на Ближнем и Среднем Востоке, а также в качестве источника сырья и рынка сбыта для своих товаров.

**Ключевые слова:** Англия, Сефевидское государство, торговля, дипломатия, Ост-Индская компания

# SOME ASPECTS OF COLONIAL POLICY OF ENGLAND IN XVI-XVII CENTURIES AND THE SAFAVIDS EMPIRE
## (based on English sources)

**D.G.HASANZADEH**

**SUMMARY**

In the plans of European States including England, an essential place occupied the Safavid Empire. England considered Safavids Empire as an important bridgehead to confirm its domination in the Middle Asia and also as a source of raw materials and outlet for its trade.

**Key words:** England, Safavid Empire, trade, diplomacy, Ost-Hind Company